# Əsas sözlər: Yeriməyə köməkçi vasitələr

| Termin | Anlayışı | Şəkli |
|---|---|---|
| **Amputasiya** | Bədənin hər hansı bir hissəsinin, məsələn, ayağın və ya qolun itirilməsi. | |
| **Artrit** | İnsanın oynaqlarının sərtləşməsi, şişməsi və (və ya) hərəkət edən zaman ağrıması ilə müşayiət olunan sağlamlıq problemidir. | |
| **Sümük sınığı (qırıq)** | Bədənin hər hansı bir sümüyünün qırılması və ya çatlaması. | |
| **Diabet** | Qanda şəkərin yüksək olduğu xəstəlik. Bir çox sağlamlıq problemlərinə, o cümlədən bədənin hissələrini (xüsusilə ayaqları) hiss etmə probleminə və bunun nəticəsində daban yaralarına, görmə qabiliyyətinin tədricən itirilməsinə, böyrəklərin zədələnməsinə, sidikqaçırmaya və yaddaş problemlərinə səbəb ola bilər. | |
| **Daban yarası** | Ayağın dərisinin bütünlüyünün pozulması. Daban yaraları diabetin və digər xəstəliklərin ağırlaşması olub, ayaqlarda hissiyyatı azaldır. Müalicə olunmadıqda, diabetlə əlaqədar daban yarası amputasiyaya gətirib çıxara bilər. Diabetlə əlaqədar daban yaraları daban xoraları da adlanır. |  |
| **Zəif/zəiflik** | Zəif, kövrək və enerjisi az. Əsasən, insanlar yaşlandıqca və səhhətləri zəiflədikcə baş verir. | |
| **Əl funksiyası** | Əli fəaliyyətlər (məsələn, yazmaq, əşya daşımaq, yemək hazırlamaq, tikiş tikmək) üçün istifadə etmə qabiliyyəti. | |
| **İflic** | Bədənin hər hansı bir hissəsini (adətən, baldırları və ya ayaqları) hərəkət etdirmək qabiliyyətinin itirilməsi. | |
| **Poliomielit** | İnsanın əzələlərinin zəifləməsinə və ya iflic olmasına səbəb ola bilən ciddi yoluxucu xəstəlikdir. Həmin şəxs infeksiyadan sağaldıqdan sonra belə, onun hərəkət qabiliyyyətinə təsir edir. | |
| **Protez baldır və ya ayaq** | Amputasiya olunmuş baldırı və ya ayağı əvəz edən süni baldır və ya ayaq. |  |
| **İnsult** | Beyində qan dövranına maneə yaranması. Bədənin bir tərəfinin zəifləməsinə və ya iflic olmasına, həmçinin danışma, hissiyyat, düşünmə və görmə problemlərinə | |

| | | |
|---|---|---|
| | səbəb ola bilər. | |
| **Münasib ayaqqabılar** | Yaşadığınız yerdə ala biləcəyiniz, ayağa yaxşı oturan və ayaqları qorumağa və yıxılma riskini azaltmağa kömək edən cəhətlərə malik ayaqqabılar. |   |
| **Müalicəvi ayaqqabı** | Yara əmələ gəlmə riski olan daban üçün qoruyucu və dəstəkləyici funksiyası artırılmış, xüsusi cəhətlərə malik olan ayaqqabılar. |   |
| **Çəki daşıma** | İnsanın öz ayağı/ayaqları vasitəsilə daşıya biləcəyi çəki miqdarı. | |